

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 222 (21.374)

*13 noyabr 2015-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də BMT-nin Əhali Fondunun icraçı direktoru, BMT baş katibinin müavini Babatunde Osotimehini qəbul edib.

BMT ilə uğurlu əməkdaşlığa görə dövlətimizin başçısına minnətdarlığını bildirən Babatunde Osotimehin əlaqələrimizin inkişaf etdirilməsinə Azərbaycan hökuməti tərəfindən yaradılan şəraitdən məmnunluğunu ifadə edib.

Dövlətimizin başçısı Azərbaycanın müstəqilliyini bərpa etməsindən ötən müddət ərzində sosial siyasətin həmişə prioritet məsələlərdən biri olduğunu və əsas diqqətin ölkənin ehtiyaclarının ödənilməsinə yönəldiyini qeyd edib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycanda insanların gündəlik həyatına mənfi təsir göstərmədən iqtisadi islahatlar həyata keçirilməklə sosial proqramlar da paralel olaraq icra edilib və nəticədə iqtisadiyyat gücləndikcə insanların həyat şəraiti də yaxşılaşmağa başlayıb.

Sonra Babatunde Osotimehin BMT-nin 1994-cü ildə Qahirədə keçirilən əhali və inkişaf üzrə beynəlxalq konfransından irəli gələn məsələlərin reallaşdırılmasında siyasi iradə, yorulmaz fəaliyyət və böyük səylər göstərdiyinə, eləcə də Davamlı İnkişaf Proqramının Azərbaycanda dəstəklənməsi, o cümlədən qadınların və gənclərin sağlam həyat şəraiti imkanlarının genişləndirilməsi istiqamətindəki xidmətlərinə görə BMT-nin Əhali Fondu adından mükafatı Prezident İlham Əliyevə təqdim edib.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimat mərasimi olmuşdur





Noyabrın 12-də – Konstitusiya Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün, "Dövlət qulluğunda fərqlənməyə görə" və "Tərəqqi" medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının mükafatlarına layiq görülmələri, eləcə də Konstitusiya Günü münasibətilə təltif olunanları və onların timsalında muxtar respublika əhalisini təbrik edərək demişdir: Təltif olunmaq böyük nailiyyət, bu adı daşımaq isə şərəfdir. Bu gün təltif olunanlar çalışdıqları sahələrdə fərqləndiklərinə görə dövlətimizin yüksək mükafatlarına layiq görülüblər.

Ali Məclisin Sədri təltif olunanlara təşəkkür edərək demişdir: Azərbaycan dövlətinin qurucusu, ümummilli liderimiz Heydər Əliyev həm də Konstitusiyamızın yaradıcısıdır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən ölkə vətəndaşlarına digər hüquqlarla yanaşı, iş hüququ da verilir. Bundan istifadə edərək Azərbaycan dövlətinin möhkəmlənməsi və inkişafı yolunda çalışan, xidməti fəaliyyətində fərqlənənlər isə ölkəmizin dəyərli insanlarıdır. Onların əməyi daim dövlətimiz tərəfindən qiymətləndirilir, dövlət mükafatları ilə təltif edilirlər. Dövlət təltifinə layiq görülmək üçün isə insan vətənpərvər olmalı, ölkəsinə və xalqına sədaqətlə xidmət etməlidir.

Ali Məclisin Sədri demişdir: Bu gün ulu öndərin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə sabitlik vardır. Sabitlik olan yerdə isə iqtisadi inkişaf davamlı olur. İqtisadi inkişafı təmin edənlər isə öz vəzifəsini layiqincə yerinə yetirən insanlardır. Bu insanların dövlətimizin təsis etdiyi ali mükafatlarla təltif olunması ölkəmizdəki sabitliyin, iqtisadi inkişafın, dövlət-xalq və xalq-dövlət birliyinin nəticəsidir.

Ali Məclisin Sədri təltif olunanları bir daha təbrik etmiş, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünü, medalların, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Təltif olunanlardan Bayram Rzayev, Mübariz Əsgərov, Alidə Fətullayeva, Vüsalə Əliyeva, Mahir Əliyev, Rəhim Qafarov, Natiq Əhmədov, Leyla Abbasova, Məhsəti Məmmədova, Əyyub Abdullayev, Əlövsət İbrahimov, Natiq Məmmədov, Tofiq Rüstəmov, Vüqar Quliyev və İlqar Mirzəyev minnətdarlıq edərək demişlər: Bu gün sabitlik və əmin-amanlıq şəraitində yaşayırıq. Ölkəmizdə bütün sahələr inkişaf etdirilir, insanların rahat işləməsi üçün şərait yaradılır. Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf xətti Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Doğma Naxçıvanımızın bugünkü inkişafında pay sahibi olmaq hər bir insan üçün böyük qürur və şərəfdir. Əməyimizə yüksək qiymət verilməsi, dövlət mükafatları ilə təltif olunmağımız isə məsuliyyətimizi artırır, bundan sonra daha səylə çalışmağa sövq edir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Beynəlxalq Hava Limanının Aerovağzal binasında yenidənqurma işləri aparılır





Muxtar respublikada hava nəqliyyatının inkişafı diqqət mərkəzində saxlanılır. Naxçıvan Beynəlxalq Hava Limanında xidmət şəraitinin müasirləşdirilməsi və sərnişinlərin rahatlığının təmin olunması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində Aerovağzal binasında yenidənqurma işləri aparılır.

Noyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov binada aparılan yenidənqurma işləri ilə tanış olmuşlar.

*Ardı 2-ci səhifədə*

Məlumat verilmişdir ki, yenidənqurma işləri çərçivəsində 2 keçid körpüsü və 2 teleskopik trap quraşdırılmışdır. Binada sərnişin qəbulu və yola salınması üçün lazımi tədbirlər görülmüş, eskalator, 2 lift və ümumi uzunluğu 41 metr olan baqaj konveyeri quraşdırılmış, ana-uşaq otağı, tibb məntəqəsi, geniş və işıqlı gözləmə zalları istifadəyə verilmişdir. Yeni teleskopik traplar vasitəsilə sərnişinlər rahatlıqla təyyarələrə minəcək, həmçinin təyyarədən terminal binasına keçəcəklər. Ən müasir avadanlıqların quraşdırılması sərnişinlərin rahatlığına və uçuşların təhlükəsizliyinə imkan verəcəkdir.

Binada xarici reyslərin qarşılanıb-yola salınması üçün pasport-qeydiyyat bölmələri və viza otağı istifadəyə verilmiş, sərhəd, gömrük və miqrasiya xidmətlərinin əməkdaşları üçün müasir iş şəraiti yaradılmışdır. Gözləmə zalında elektron gömrük və miqrasiya xidmətlərinin göstərilməsi üçün Azərbaycan, ingilis və rus dillərində informasiya köşkü qurulmuşdur. Sərhəd nəzarəti məntəqəsi üçün ayrılan xidməti otaqlarda da lazımi şərait yaradılmışdır.

Binada təhlükəsizlik tədbirlərinin də ən müasir tələblər səviyyəsində həyata keçirilməsi nəzərə alınmış, videonəzarət sistemi quraşdırılmış, xüsusi dizaynla tərtib olunmuş “Duty free” mağazaları və kafelər fəaliyyətə başlamışdır.

Yenidənqurma işləri başa çatdırıldıqdan sonra illik sərnişin və yükdaşıma dövriyyəsi artacaq, Aerovağzal binasından istifadə edən sərnişinlərin sayı saatda 500 nəfərə çatdırılacaqdır.

Ali Məclisin Sədri Aerovağzal binasında yenidənqurma işləri aparılarkən sərnişindaşıma və aviasiya təhlükəsizliyi ilə bağlı tədbirlərin mühəndis-texniki tələblər səviyyəsində başa çatdırılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*İcmal*

## Sosial-iqtisadi tərəqqinin özünəməxsus, mütərəqqi modelini yaradan Naxçıvan daha böyük nailiyyətlərə doğru inamla irəliləyir

### *Ötən ayın inkişaf, quruculuq mənzərəsi də belə deməyə əsas verir*

***Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi inkişafın, tərəqqinin özünəməxsus, mütərəqqi modelini formalaşdırıb. İnkişafın Naxçıvan modeli sayəsində muxtar respublikamız 24 ildir, blokada vəziyyətində yaşamağına baxmayaraq, gündən-günə daha sürətlə inkişaf edən bir diyara çevrilib. Qazanılan uğurların miqyasının davamlı olaraq genişləndirilməsi isə muxtar respublikamızı daha böyük nailiyyətlərə doğru aparır. Oktyabr ayında biz bunun bir daha şahidi olduq.***



Ötən ay həm də Azərbaycanda cəmiyyətin daha da demokratikləşdirilməsi istiqamətində növbəti əhəmiyyətli ictimai-siyasi hadisə olan parlament seçkiləri ərəfəsi idi. Azərbaycan Respublikasının Milli Məclisi ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən seçkilər ərəfəsində hazırlıq işlərinin yüksək səviyyədə aparılması muxtar respublikamızda demokratiyanın inkişafının sosial-iqtisadi inkişafla paralel şəkildə getdiyini bir daha göstərdi. Muxtar respublikamızda kişilərlə yanaşı, qadınların da bu prosesdə fəal iştirak etməsi ictimai-siyasi proseslərdə onların rolunun artması ilə izah edilir. Dövlət siyasətinin əsas istiqamətlərindən biri də məhz ondan ibarətdir ki, qadınlar dövlət quruculuğunda, ictimai-siyasi həyatda yaxından iştirak edərək daha da fəallaşsınlar, muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni inkişafına öz töhfələrini versinlər. Bu mənada, oktyabrın 5-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında “Muxtar respublika qadınları müstəqillik illərində” mövzusunda sərginin təşkil edilməsi böyük əhəmiyyət kəsb edir.

Həmin tədbirin əhəmiyyətini artıran digər bir məqam isə günümüzün ən aktual məsələlərindən biridir. Bu barədə danışan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Muxtar respublika qadınları müstəqillik illərində” sərgisinin milli dəyərlərimizə həsr olunması onun əhəmiyyətini daha da artırır. Hər bir xalqın milli dəyəri onun milli kimlik pasportudur. Ona görə də milli dəyərlərin qorunub-saxlanılması və yaşadılması vacib məsələdir. Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində əsasını qoyduğu milli dəyərlərin yaşadılması, milli-mədəni irsə qayıdış siyasəti bu gün ölkəmizdə uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da milli dəyərlərin yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür. Qadınların əl işlərindən ibarət sərginin təşkili də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır”.***

Bu gün muxtar respublikamızda xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşadan qadınlara daim diqqət göstərilir. Gənc qızların müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün xalçaçı, keçəçi, dərzi, ağac üzərində oyma və sair peşə kursları təşkil olunur. Təsadüfi deyil ki, 2012-ci ildə “Milli dəyərlər ili” ilə əlaqədar 71 istedadlı qadının 428, 2014-cü ildə “Muxtariyyət ili” ilə əlaqədar 157 istedadlı qadının 343 rəsm və əl işi sərgi-satışlara çıxarılıb. Həmçinin 2014-cü ildə və bu ilin ötən dövründə 150-dən çox istedadlı qadının 400-dən artıq rəsm və əl işinin satışı təşkil olunub. Ötən ay qadınların əl işlərindən ibarət növbəti sərginin keçirilməsi də qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi, Naxçıvanın qədim tarixini və müasir inkişafını ilmələrə, tablolara köçürməklə qorumaq və yaşatmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Son illər ərzində aparılan genişmiqyaslı tikinti-quruculuq işləri nəticəsində bu gün qədim Naxçıvanın bütün şəhər, qəsəbə və kəndləri müasir yaşayış məntəqələrinə çevrilib. Muxtar respublikanın ucqar dağ kəndlərində də möhtəşəm quruculuq işləri aparılır. Bu işlər sırasında ən çox diqqəti cəlb edən kəndlərin abadlaşdırılması istiqamətində görülən kompleks tədbirlərdir. Sistemli və düşünülmüş şəkildə aparılan işlərin əsas məqsədi kənd sakinlərinin rahat, firavan yaşayışını təmin etməkdir.

Bu gün muxtar respublikanın kəndlərində təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində də kompleks tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikasında yeni məktəb binaları istifadəyə verilir, şagirdlərin müasir dövrün tələbləri səviyyəsində təhsil almaları üçün hər cür şərait yaradılır. Gənc və yeniyetmələrin təhsili üçün yaradılan bu şərait çox böyük strateji məqsədlərə xidmət edir. Hər birimiz bilirik ki, insan kapitalının formalaşmasında təhsilin xüsusi rolu vardır. Təhsil olmadan savadlı, hərtərəfli inkişaf etmiş gənclik yetişdirmək mümkün deyil. Məhz bu səbəbdən muxtar respublikada təhsilin davamlı inkişafı ilə bağlı tədbirlər görülür, məktəb binaları müasir tədrisin tələblərinə uyğun qurulur, informasiya texnologiyaları ilə təminat diqqət mərkəzində saxlanılır. Oktyabrın 6-da və 21-də Şərur rayonunun Kürçülü və Yuxarı Yaycı kəndlərində, oktyabrın 12-də isə Ordubad rayonunun Tivi kəndində istifadəyə verilən yeni məktəb binalarında da maddi-texniki təminata xüsusi diqqət yetirilib.

Kürçülü, Yuxarı Yaycı və Tivi kəndlərində hərtərəfli şəraiti olan məktəb binalarının istifadəyə verilməsi ölkəmizdə təhsilin inkişafına və gənclərin hərtərəfli formalaşmasına göstərilən qayğının nəticəsidir. Kənd məktəblərində yaradılan şərait şagirdlərin yaxşı təhsil almasına, vətənpərvər ruhda böyüməsinə geniş imkanlar açıb. Həmin məktəblərdəki müəllimlərimiz də müasir tədris vasitələrindən istifadə etməklə kənddə təhsilin səviyyəsini daha da yüksəldə bilərlər.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən nümunəvi və ən gözəl layihələrdən biri də kənd mərkəzləri layihəsidir. Muxtar respublikanın kəndlərində inşa olunan kənd mərkəzləri sakinlərin rahat, firavan yaşayışını təmin etmək məqsədi daşıyır. Belə ki, məzmun və mahiyyətcə yeni obyektlər olan kənd mərkəzləri yaradılmazdan əvvəl kəndlərdə fəaliyyət göstərən ayrı-ayrı dövlət qurumları müxtəlif yerlərdə, köhnə, uyğunlaşdırılmış binalarda yerləşirdi. Əhalisi çox olan kəndlərdə mövcud vəziyyət insanları çətinliyə salırdı. Sakinlər müəyyən yerli məsələlərin həlli üçün xeyli vaxt sərf etməli olurdular. Kənd mərkəzləri yaradıldıqdan sonra vəziyyət müsbətə doğru dəyişdi: bütün yerli dövlət qurumlarının hamısı bir mərkəzdə yerləşdirildi, fəaliyyətlərinin səmərəli təşkili üçün şərait yaradıldı. İndi bir binaya üz tutmaqla bir neçə məsələni yerindəcə həll etmək mümkündür. Ötən ay Şərur rayonunun Kürçülü və Yuxarı Yaycı kəndlərində, eyni zamanda Ordubad rayonunun Tivi kəndində istifadəyə verilən kənd mərkəzləri də bu məqsədlərə xidmət edir.

Onu da deyək ki, Yuxarı Yaycı kəndi dəniz səviyyəsindən 1500 metr, Tivi kəndi isə 1600 metr yüksəklikdə yerləşir. Həmin kəndlərdə müasir infrastrukturun yaradılması insanların rahat yaşamasına, məskunlaşmanın artmasına şərait yaradır. Artıq adıçəkilən dağ kəndlərində yaşayan insanlar saatlarla vaxt itirib rayon mərkəzlərinə getmirlər. Bu problem birmənalı şəkildə həllini tapıb. Həlli mümkün olan bütün məsələlər kənd mərkəzlərində cəmləşmiş təşkilatlar tərəfindən yoluna qoyulur. Bununla həm insanların rahatlığı təmin olunur, həm də işin keyfiyyəti yüksəlir.

Bütün bunlar ölkəmizdəki sabitliyin, əmin-amanlığın, hakimiyyətlə xalq arasında sıx birliyin nəticəsində mümkün olur. Muxtar respublikamızda dövlət qayğısı ilə əhatə olunan insanlar daha əzmlə çalışaraq inkişaf, yüksəliş proseslərinin fəal iştirakçılarına çevrilirlər. İnsanlar şəhərlərimizdə, kəndlərimizdə aparılan quruculuq işlərini ulu öndərimiz Heydər Əliyevin siyasi xəttinin bəhrələri kimi dəyərləndirir, daim bu siyasi xəttə sadiqlik nümayiş etdirirlər. Nəticədə, dövlət-cəmiyyət birliyi muxtar respublikamızı daha böyük uğurlara aparır.

Muxtar respublikada əhalinin sağlamlığının qorunması üçün kəndlərdə müasir tibb məntəqələri yaradılır, həkim ambulatoriyaları tikilib istifadəyə verilir. Ötən ay Kürçülü və Yuxarı Yaycı kəndlərində feldşer-mama məntəqələrinin fəaliyyəti üçün yaradılan şərait, Tivi kəndində isə həkim ambulatoriyası üçün yeni binanın istifadəyə verilməsi həyata keçirilən səhiyyə quruculuğunun tərkib hissəsidir.

Bu gün Naxçıvan Muxtar Respublikasının şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərində də müasir binaların inşa olunması, abad yolların istifadəyə verilməsi sürətli iqtisadi inkişafın bariz nümunəsidir. Adıçəkilən kəndlərdə bu istiqamətdə kompleks işlər görülüb, asfalt yol salınıb. Artıq insanların rahat gediş-gəlişi üçün heç bir problem qalmayıb. Aparılan tikinti-quruculuq işləri zamanı kəndlərin rabitə, içməli su, elektrik və təbii qaz təchizatı da yaxşılaşdırılıb.

Görülən genişmiqyaslı işlər kənd sakinlərinin torpağa bağlılığını, onların qurub-yaratmaq əzmini daha da artırır, insanların firavan yaşayışını təmin edir. Çünki hər bir yaşayış məntəqəsinin, xüsusilə kəndlərin inkişafı davamlı olarkən insanlar da rahat və firavan yaşayırlar. Bu gün muxtar respublikanın kəndlərinə, şəhərlərinə nəzər salarkən inkişafın, müasirliyin və rahat yaşayışın şahidi oluruq. Artıq kəndlərdə şəhər rahatlığı yaradılıb.

Muxtar respublikamızda dini-mənəvi dəyərlərimizə də xüsusi qayğı göstərilir, islami dəyərlərə hörmət və ehtiramla yanaşılır. Şəhər və kəndlərdə yeni məscid binaları tikilərək istifadəyə verilir. Oktyabrın 6-da Şərur rayonunun abad yaşayış məntəqələrindən biri olan Kürkənddə məscid binası istifadəyə verilib.

Muxtar respublikada mədəniyyət və incəsənətin inkişafına da xüsusi diqqət göstərilir. Hər il yeni mədəniyyət müəssisələri, muzeylər, kitabxanalar, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri tikilərək istifadəyə verilir. Oktyabrın 26-da Sədərək Rayon Uşaq Musiqi Məktəbi üçün yeni binanın istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır.

Açılış tədbirindən sonra məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri deyib: ***“Hər bir xalqın qədimliyi, kimliyi həm də onun milli musiqisində yaşayır. Azərbaycan xalqının min illər ərzində formalaşan qədim musiqi mədəniyyəti vardır. Muğamlarımız, aşıq sənəti, yallılarımız milli musiqimizin tarixindən xəbər verir. “Gəmiqaya” abidələrindəki təsvirlər xalqımızın qədim sənətkarlıq mədəniyyətinin izlərini yaşadırsa, yallılarımız isə min illər ərzində formalaşan milli musiqi sənətimiz haqqında məlumat verir. Bu gün musiqi məktəblərində tədrisin nümunəvi təşkili milli musiqimizin şagirdlərə hərtərəfli öyrədilməsindən başlayır. Pedaqoji kollektiv tədris zamanı milli musiqi mədəniyyətimizin təbliğini üstün istiqamət kimi götürməli, muğamlarımız, aşıq sənəti, yallı və xalq mahnılarımız şagirdlərə ətraflı öyrədilməlidir”.***

Muxtar respublikada elm, mədəniyyət xadimlərinin, görkəmli şəxsiyyətlərin xalqa və ictimaiyyətə qaytarılması, adlarının əbədiləşdirilməsi, tədqiqatların aparılması, əsərlərinin nəşr etdirilməsi, yubileylərinin keçirilməsi ilə əlaqədar imzalanan sərəncamlar və görülən tədbirlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tarixi şəxsiyyətlərə, yaradıcı şəxslərə və ziyalılara göstərdiyi qayğının əyani ifadəsidir. Həmin tədbirlərin davamı olaraq, oktyabrın 17-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında görkəmli dövlət xadimi və ədib Nəriman Nərimanovun anadan olmasının 145-ci ildönümü qeyd olunub.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında bu gün daim inkişaf edən iqtisadi-ticarət münasibətləri mövcuddur. Əlaqələrin inkişafında İranın Araz Azad Ticarət və Sənaye Zonası xüsusi rol oynayır. Oktyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun İran İslam Respublikasının Araz Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Möhsün Xadim Ərəbbaği ilə görüşündə də bu məsələlər müzakirə olunub.

İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti də Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Oktyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadə ilə görüşüb. Əlaqələrin inkişafında qarşılıqlı səfərlərin və birgə səylərin vacibliyini vurğulayan Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi Azərbaycan Vilayəti arasında əlaqələrin bundan sonra da davam etdiriləcəyinə inamını ifadə edib.

Azərbaycanın sürətlə inkişaf edən qədim Naxçıvan diyarı türkdilli ölkələr üçün də mühüm əhəmiyyət daşıyır. Oktyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Jandos Asanovla görüşüb. Ali Məclisin Sədri Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibinin Naxçıvana səfərinin əhəmiyyətindən danışıb. Naxçıvanda Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşü zamanı Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında sazişin imzalandığını və Türkdilli Ölkələrin Parlament Assambleyasının fəaliyyətinə dəstək verildiyini xatırladan Ali Məclisin Sədri türkdilli ölkələr arasında əlaqələrin inkişafında Naxçıvanın rolunu diqqətə çatdırıb.

Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 92-ci ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tədbirdə çıxış edərək müstəqillik bayramı – Cümhuriyyət elan edilməsi münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edib, inkişaf və tərəqqi arzulayıb.

*Ötən ayın yekunları göstərir ki, Naxçıvanda bütün sahələr inkişaf etdirilir, yeni infrastruktur layihələri həyata keçirilir, regional cazibə mərkəzinə çevrilən muxtar respublikamıza olan beynəlxalq maraq daha da artır.*

**Rauf ƏLİYEV**

# Naxçıvan Sement Zavodunun istehsal gücü artırılıb

***Yeraltı və yerüstü sərvətlərlə zəngin muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə məqsədilə daha bir nəhəng layihə reallaşdırılmış, 2012-ci ildə "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqı "Gəmiqaya Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan Sement Zavodunun tikintisi uğurla başa çatdırılmışdır. Əvvəlcə muxtar respublika ərazisində "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının mütəxəssisləri tərəfindən sement istehsalı üçün xammal mənbələrinin müəyyən olunması məqsədilə geoloji axtarışlar aparılmışdır. Yataqlarda lazımi xammal aşkar olunduqdan sonra onun tərkibi Türkiyənin Sement İstehsalçıları Birliyi tərəfindən və Çin Xalq Respublikasının bu sahə üzrə ixtisaslaşmış laboratoriyalarında yoxlamadan keçirilmişdir.***



Laboratoriyalardan müsbət rəylər alındıqdan sonra Kəngərli rayonunda 150,6 hektarlıq ərazidə yeni Sement Zavodunun tikintisinə başlanılmışdır. Öz əhəmiyyətinə və çəkilən xərclərin miqyasına görə son 20 ilin ən böyük layihələrindən olan zavodun inşası "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının təcrübəli mütəxəssisləri və inşaatçıları tərəfindən həyata keçirilmişdir. Burada istehsal sahələri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, inzibati və iaşə xidməti binaları tikilmiş, Naxçıvan-Sədərək magistralından zavodadək 2 kilometr məsafədə yeni avtomobil yolu çəkilib asfalt-beton örtük salınmış, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, hazır məhsulun daşınmasına da hərtərəfli şərait yaradılmışdır.

2012-ci il mayın 30-da muxtar respublikamızda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Sement Zavodunun açılış mərasimində iştirak etmişdir. Ölkə başçısı Böyük İpək Yolunun bir hissəsi olan Naxçıvan-Culfa magistral avtomobil yolunun açılış mərasimindəki çıxışında regionumuzda həyata keçirilən digər infrastruktur layihələrlə yanaşı, Naxçıvan Sement Zavodunun da ölkəmiz üçün mühüm əhəmiyyətli sahə olduğunu bildirərək demişdir: ***"İnşaat materialları, demək olar ki, artıq daxili imkanlar hesabına formalaşır. Bu gün Sement Zavodunun açılışını qeyd etmişik. Bu, məni çox sevindirir. Çünki bu, ölkəmiz üçün lazımdır... Naxçıvan Sement Zavodu sementə olan ehtiyacı tam şəkildə ödəməyə imkan verəcək və idxaldan asılılıq aradan qaldırılacaq".***

Çin və Türkiyə istehsalı olan avadanlıqların quraşdırıldığı ağır sənaye müəssisəsində 18 əsas istehsal bölməsi mövcuddur. Bütün xammal növləri muxtar respublikanın yataqlarından əldə olunur. Əsas xammal olan əhəngdaşı, mergel və köməkçi xammallar – dəmirli gil Kəngərli rayonunun Çalxanqala, kvars Şərur rayonunun Gümüşlü, gips isə Babək rayonunun Nehrəm kəndləri yaxınlığındakı yataqlardan çıxarılır. Məlumat üçün qeyd edək ki, zavodda sement müasir quru üsulu ilə istehsal edilir. Region ölkələrində bu üsulla sement istehsal edən çox az müəssisə var. Quru üsulla sement istehsalı zavodun yanacaq sərfini minimuma endirir. İstehsal edilən sementin keyfiyyəti zavod istifadəyə veriləndə qədər muxtar respublikaya idxal olunan eyni məhsullardan olduqca yüksəkdir. Artıq istehsal edilən məhsul ölkəmizin müxtəlif regionlarına, eləcə də Türkiyəyə və Gürcüstana göndərilir.

İstehsal prosesinin konveyer üsulu ilə təşkil edildiyi müəssisədə texnoloji proseslərə ciddi əməl edilir. Blok şəklində müəssisəyə daxil olan xammal müxtəlif mərhələlərdən keçməklə kiçik ölçülərdə doğranıb qarışıqlarla birlikdə 1400-1600 dərəcə istilikdə bişirilir. Hazır məhsul sonrakı mərhələdə üyüdülüb 50 kiloqramlıq kisələrdə qablaşdırılaraq "Naxçıvan sement" əmtəə nişanı ilə satışa çıxarılır. Naxçıvan Sement Zavodu "CE" keyfiyyət nişanına layiq görülmüşdür. Bu keyfiyyət nişanı məhsulun Avropa tələblərinə uyğunluğunun göstəricisidir. Yeri gəlmişkən bildirək ki, keyfiyyət nişanı Avropa Birliyində akkreditasiyadan keçmiş Türk Standartlar İnstitutunun mütəxəssisləri tərəfindən istehsal prosesindəki avadanlıqlar, keyfiyyətə nəzarət cihazları, istehsal prosesində əməyin və ətraf mühitin mühafizəsi nəzərə alınaraq qiymətləndirilmişdir. Eyni zamanda Türk Standartlar İnstitutu tərəfindən keyfiyyətin yoxlanılmasında istifadə edilən bütün ölçü cihazlarının və avadanlıqların da kalibrlənməsi aparılmışdır. Onu da qeyd edək ki, Avropa tələblərinə uyğunluğun göstəricisi olan bu keyfiyyət nişanının verildiyi hər bir müəssisənin məhsulu Türk Standartlar İnstitutu tərəfindən 6 aydan bir həmin institutun tikinti materialları laboratoriyasında kimyəvi və fiziki keyfiyyət göstəriciləri baxımından yoxlanılır.

Zavodda istehsal xəttinə daxil olan xammalın, qatqı maddələrinin, istehsal olunan məhsulun keyfiyyətinə nəzarət müasir avadanlıqlarla təchiz edilmiş laboratoriyada həyata keçirilir. Burada quraşdırılan avadanlıqlarla istehsalat xəttindən saatda bir dəfə nümunələr alınaraq kimyəvi, fiziki və mexaniki analizlər aparılır. Bu analizlərin nəticəsi həm istehlakçıya verilir, həm də zavodun arxivində saxlanılır. Hər iki aydan bir məhsulun laborator analizləri Türkiyə Respublikasında həyata keçirilirdisə, yeni avadanlıqların quraşdırılmasından sonra bu problem aradan qaldırılmış, laboratoriyada 2013-cü ilin avqust ayında Almaniya istehsalı olan müasir avadanlıqlar quraşdırılmış, mikroskopik analizlərin zavodda fəaliyyət göstərən laboratoriyada aparılması təmin edilmişdir.

Zavodun ətraf mühitə mənfi təsirinin minimum səviyyəyə endirilməsi üçün də bütün vacib tədbirlər həyata keçirilmişdir. Bunun üçün burada dünya standartlarına uyğun avadanlıqlar quraşdırılmışdır. İstehsalat xəttində qırma, üyütmə və nəql kimi fiziki, bişirməyə hazırlıq üçün ilkin isitmə, ilkin kalsinasiya və yekun bişirmə kimi kimyəvi proseslər nəticəsində əmələ gələn toz və tüstü xüsusi tutucularla geri qaytarılır.

Zavodun ətrafındakı ərazilərdə geniş yaşıllaşdırma tədbirləri həyata keçirilmişdir. Bu məqsədlə 12 hektarlıq əraziyə 20 minə yaxın ağac əkilmiş, abadlaşdırma işləri aparılmışdır.

Bu istehsal müəssisəsi əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayır. Zavoddakı işçilərin əksəriyyəti muxtar respublika sakini olan gənclərdir. Burada çalışanlar üçün normal iş şəraiti yaradılmış, onlar yüksək əməkhaqqı, xüsusi geyim formaları ilə təmin olunmuşlar.

Daxili və xarici bazarda "Naxçıvan sement"ə artan tələbatın ödənilməsi məqsədilə zavodda yeni bir layihənin həyata keçirilməsi zərurəti yaranmış, ötən il istehsal xəttində klinker (hazır məhsul) çənləri ilə üyütmə bölməsi arasında yeni bölmənin yaradılmasına başlanılmışdır. Layihəyə uyğun olaraq, zavodda yeni bölmə üçün bina inşa olunmuşdur. Dünyada sement zavodları qurmaq sahəsində qabaqcıl təcrübəyə malik Almaniyanın "KHO", "Polysims", Danimarkanın "Flsm.dth" firmalarını soba, daşqırıcılar və üyüdücülərlə təmin edən Çin Xalq Respublikasının "Jiangsu Pengfei Group Co.LTD" şirkətindən müasir texnoloji avadanlıqlar alınmış, həmin şirkətin mütəxəssisləri tərəfindən quraşdırılmışdır. Yeni bölmənin istifadəyə verilməsi istehsal prosesinin daha da təkmilləşdirilməsinə səbəb olmuş, klinkerlərin daha kiçik formada parçalanmasına və üyütmə prosesinə müsbət təsir göstərmiş, yeni çeşiddə sement istehsalına və zavodun istehsal gücünün artmasına əlverişli şərait yaratmışdır. Gündəlik istehsal gücü 800 tondan 1300 tona çatdırılan zavodda hazırda tələbata uyğun məhsul istehsal olunub satışa çıxarılır.

**Kərəm HƏSƏNOV**

# Həyata keçirilən hazırlıq tədbirləri payız-qış mövsümünün uğurla başa çatacağına əminlik yaradır

*Bu gün ölkəmizin sosial-iqtisadi həyatında nail olunmuş yüksək inkişaf və tərəqqi, bu istiqamətdə reallaşdırılan məqsədyönlü tədbirlər əhaliyə müxtəlif sahələrdə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsinə imkan verib. Blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikamızda da insanların rahat yaşaması, onların rifah halının daha da yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Həyata keçirilən belə tədbirlər içərisində ilin bütün fəsillərində əhalinin fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Qarşıdan qış mövsümü gəlir. Muxtar respublikanın quru kontinental iqlimə malik olması bu mövsümə daha ciddi hazırlaşmağı zəruri edir. Buna görə də hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə keçirilir, müşavirədə görülən işlər təhlil olunur, qarşıda duran vəzifələr müəyyənləşdirilir, aidiyyəti qurumlara payız-qış mövsümünü mütəşəkkil surətdə başa vurmaq üçün tapşırıqlar verilir.*

Avqust ayının 28-də keçirilən müşavirədə də indiyədək görülən işlər müzakirə edilmiş, görüləcək işlər müəyyənləşdirilmişdir. Qeyd olunmuşdur ki, muxtar respublikada mövsümə hazırlıq işlərinə ciddi fikir verilir. Muxtar respublikanın bütün yaşayış məntəqələrinin elektrik enerjisi və təbii qazla tam təchiz olunması əvvəlki illərdə üzləşilən çətinlikləri aradan qaldırıb. Bu isə, öz növbəsində, imkan verir ki, qış aylarında mənzillər, inzibati binalar, təhsil, səhiyyə, mədəniyyət və idman obyektləri fəaliyyətini fasiləsiz olaraq davam etdirsin. Muxtar respublikada qurulmuş 7 elektrik stansiyası vasitəsilə regionun elektrik enerjisinə olan tələbatı tam ödənilsə də, məskunlaşma səviyyəsinin ilbəil artması, yeni yaşayış məhəllələrinin salınması, sənaye və digər enerji tutumlu müəssisələrin istifadəyə verilməsi elektrik enerjisinə olan tələbatı artırır. Buna görə də ənənəvi enerji mənbələri ilə yanaşı, alternativ və bərpa olunan enerji mənbələrindən də istifadə diqqət mərkəzində saxlanılır, muxtar respublikanın relyef və iqlim xüsusiyyətləri nəzərə alınaraq yeni stansiyaların quraşdırılması davam etdirilir.

Bir neçə ilin təcrübəsi göstərir ki, qışa hazırlıq məsələləri vaxtında və keyfiyyətlə yerinə yetirilərsə, insanlar bu sahədə heç bir problemlə üzləşməzlər.

Ali Məclisin Sədri payız-qış mövsümünə hazırlıqla bağlı şəhər və rayon icra hakimiyyətlərinin qarşısında da mühüm vəzifələr durduğunu bildirərək demişdir: ***"Cari il noyabr ayının 1-dək qazanxanalarda elektrik enerjisi, təbii qaz və su təchizatı məsələləri araşdırılıb nöqsanlar aradan qaldırılmalıdır. İctimai yaşayış binalarının zirzəmilərindən keçən istilik, su və kanalizasiya xətlərinin istismara yararlılığı araşdırılmalı, həmin binaların qış mövsümünə hazırlığı üçün müvafiq tədbirlər görülməlidir. Həmçinin kommunal xidmət texnikalarının saz vəziyyətdə olması nəzarətdə saxlanmalı, qış mövsümündə yolların vaxtında təmizlənməsi təmin edilməlidir".***

Payız-qış mövsümünə hazırlığın vəziyyəti ilə bağlı Şərur rayonunda görülən işlərlə tanış olduq. Şərur Şəhər Mənzil İstismar Sahəsindən bildirdilər ki, 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar olaraq Şərur şəhəri ərazisində yerləşən ictimai yaşayış və inzibati binaların, fərdi evlərin daxilində su-kanalizasiya və istilik xətlərinin təmiri, xətlərin yararlı vəziyyətdə saxlanılması, həmçinin yaşayış məhəllələrində sanitar-təmizlik işlərinin görülməsi diqqət mərkəzində saxlanılıb. 79 binaya xidmət göstərən Mənzil İstismar Sahəsinin kollektivi şəhərin Heydər Əliyev, K.Seyidov prospektlərində, N.Nərimanov, H.Cavid, M.Müşfiq, M.Ə.Sabir, Nizami, S.Vurğun küçələrində yerləşən binaların giriş qapılarını, sıradan çıxmış şiferlərin dəyişdirilməsini təmin etmiş, çardaq örtüklərində təmir işləri aparmış, 64 giriş qapısı dəyişdirilmiş, giriş pəncərələrinə 100 kvadratmetr şüşə salınmışdır. Mövsümü uğurla başa vurmaq üçün mal-material ehtiyatı yaradılmış, hazırda su və istilik xətlərində, çardaq örtüklərində təmir işləri davam etdirilir.



Rayon Suvarma Sistemləri İdarəsi də öz işini üzərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində qurub. İlin ilk 10 ayı ərzində 159 subartezian quyusunda əsaslı və cari təmir işləri aparılıb. 5 artezian quyusu bərpa edilib. 35 quyu təzə nasosla təchiz olunub. 15 yeni artezian quyusu qazılıb. Mövsümə hazırlıqla əlaqədar həyata keçirilən tədbirlər zamanı 450 metr uzunluğunda müxtəlif diametrli su borularından istifadə edilib. Artezian quyularının təmiri üçün 550 kiloqram sarğı materialı ehtiyatı yaradılıb. İdarənin kollektivi şəhər sakinlərinin keyfiyyətli su ilə təchizatını təmin etmək üçün bütün qüvvələri səfərbərliyə alıb.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar görülən işlərlə tanış olmaq üçün rayon Elektrik Şəbəkəsinə müraciət etdik. Bildirdilər ki, rayon üzrə elektrik hava xətlərinin ümumi uzunluğu 1458 kilometrdir. Ötən dövrdə xətlərdə əsaslı təmir işləri aparılıb, 23,5 kilometr uzunluğunda yeni hava xətti çəkilib. 492 ədəd elektrik dirəyi yenisi ilə əvəz olunub. 139 evə elektrik xətti çəkilib, 198 yeni sayğac quraşdırılıb, 720 ədəd sayğac dəyişdirilib. 8 yeni transformator quraşdırılıb. Kifayət qədər mal-material ehtiyatı yaradılıb.

Rayonda olarkən müxtəlif idarə, müəssisə və təşkilatlarla əlaqə saxlayıb onların qış mövsümünə hazırlığı ilə maraqlandıq. Şərur Rayon Təhsil Şöbəsində bildirdilər ki, şöbənin tabeliyində olan 56 məktəbin 41-i istilik sistemi, 1 məktəb mavi yanacaq, 14 məktəb dizel yanacağı, 2 məktəbdənkənar müəssisə fərdi qazanxana, 4 belə müəssisə isə dizel yanacağı ilə qızdırılacaq. Bunun üçün kifayət qədər neft sobası, soba borusu və dirsək əldə edilib. Bundan başqa, təhsil müəssisələrinin ehtiyacı nəzərə alınaraq 228 şifer, 293 metr polietilen, 163 kvadratmetr şüşə verilib. Rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində olan 136 mədəniyyət müəssisəsindən 71-i istilik sisteminə qoşulub, 65-i neft sobası ilə qızdırılır. 7 mədəniyyət müəssisəsinin müstəqil qazanxanası var. Şöbə tərəfindən komissiya yaradılaraq müstəqil qazanxanası olan müəssisələrə baxış keçirilib və heç bir ciddi nöqsan aşkar edilməyib.

Həyata keçirilən tədbirlər Şərur rayonunda 2015-2016-cı ilin payız-qış mövsümünün problemsiz başa çatacağına əminlik yaradır.

**Muxtar MƏMMƏDOV**

## Naxçıvanda mədəniyyətə göstərilən qayğı bəhrələrini verir

*Xəbər verdiyimiz kimi, Azərbaycanın tanınmış sənət adamları Naxçıvanda ustad dərsləri keçiblər. Bundan başqa, ifaçılar 9 Noyabr – Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə Heydər Əliyev Sarayında konsert proqramı ilə çıxış ediblər. Konsertdən sonra onların bir neçəsi ilə həmsöhbət olub, təəssüratlarını öyrəndik.*



***İlqar MURADOV – Azərbaycan Respublikasının Əməkdar artisti:*** – Mən Naxçıvana hər gəlişimdə uşaq kimi sevinirəm. Bu da çox təbiidir. Çünki bura mənim doğma Vətənimdir. Doğulub boya-başa çatdığım torpaqdır. Buradakı insanların münasibətindən həmişə müsbət enerji alıram. Naxçıvanda təşkil olunan konsert proqramlarında həmişə böyük məmnuniyyətlə iştirak edirəm. Çünki bu konsertlərdə həmyerlilərimlə görüşürəm. Əlamətdar gün münasibətilə naxçıvanlıların qonağı olduq. Bu torpağın yetirmələri Xalq artisti Samir Cəfərov, Əməkdar artistlər Cahangir Qurbanov, Nuriyyə Hüseynova, "Muğam Müsabiqəsi-2013" Televiziya Müsabiqəsinin qalibi Sərxan Bünyadzadə bu konsertdə böyük həvəslə çıxış etdilər. Naxçıvanda əsl bayram əhval-ruhiyyəsi hökm sürür. İnsanların üzündəki xoş təbəssüm məni bir sənət adamı kimi çox sevindirir. Həm də ona görə sevinirəm ki, bu gün Naxçıvanda mədəniyyətin inkişafı yüksək səviyyədədir. Gənc istedadlara böyük qayğı var. Ustad dərslərində bunun bir daha şahidi oldum. Biz dərslərdə gənclərə səs diapazonuna uyğun repertuar seçimi, düzgün tələffüz və vurğu, ifa zamanı tənəffüs orqanlarının fəaliyyətinin düzgün tənzimlənməsi, səhnə mədəniyyəti, jestikulyasiyalardan yerində istifadə ilə bağlı tövsiyələr verdik. İstedadlı gənclərin sayı çoxdur. Onlar gələcəyin peşəkar musiqiçisi kimi yetişirlər. Yaxın gələcəkdə onları böyük səhnələrdə görəcəyik.



***Nuriyyə HÜSEYNOVA – Azərbaycan Respublikasının Əməkdar artisti:*** – İnkişaf edən, çiçəklənən doğma Naxçıvanımla qürur duyuram. Naxçıvanda 2006-cı ildə konsert proqramı ilə çıxış etmişəm. Budəfəki konsertdə mən başqa ab-hava ilə rastlaşdım. Nə gözəldir ki, burada sənətə maraq artıb. Naxçıvan səhnəsi mənim üçün dünyanın ən məşhur səhnələrinə bərabərdir. Səmimi deyim ki, bu qədər konsertlərdə iştirak edirəm, amma bu konsertdə çox həyəcanlı idim. Mənim üçün naxçıvanlılar qarşısında çıxış etmək tam bir məsuliyyətdir. Naxçıvanda mədəniyyətə göstərilən qayğı öz bəhrələrini verir. Sevindirici haldır ki, gənclər arasında Əməkdar artistlər görürük. İştirak etdiyim ustad dərsində şahidi oldum ki, Naxçıvan muğam məktəbi yetişməkdədir. Bunu tam məsuliyyətlə deyirəm. Muğam müsabiqələrində naxçıvanlı gənclərin uğurları artır. Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Mədəniyyəti Fondunun layihəsi, Azərbaycan televiziyasının təşkilatçılığı və Mədəniyyət və Turizm Nazirliyinin iştirakı ilə keçirilən "Muğam Müsabiqəsi-2013" Televiziya Müsabiqəsində Naxçıvan musiqi məktəbinin yetirməsi Sərxan Bünyadzadənin qalib olması buna sübutdur. Naxçıvanda Sərxan kimi gənclər çoxdur. Ustad dərsində yeniyetmə və gənclərin muğama böyük sevgisini gördüm. İstedadlı gənclər böyük həvəslə qarşımızda çıxış etdilər. Təbii ki, bütün bunlar mədəniyyətimizə, incəsənətimizə göstərilən qayğı hesabınadır. Əvvəllər nə qədər istedad itib-batırdı. İndi muxtar respublikanın bütün rayonlarında müasir uşaq musiqi məktəbləri tikilib, onların təhsili üçün hər cür şərait yaradılıb. Bütün bunlar istedadlı gənclərin üzə çıxarılmasına, onların peşəkar musiqiçi kimi yetişməsinə imkan verir.

✍ **Sara ƏZİMOVA**

## Ümumdünya Diabet Günü münasibətilə tədbir keçirilib

***Naxçıvan Muxtar Respublikası Endokrinoloji Dispanserdə 14 noyabr – Ümumdünya Diabet Günü münasibətilə tədbir keçirilib.***

Naxçıvan Muxtar Respublikası Endokrinoloji Dispanserin baş həkimi Mirkamal Seyidov bildirib ki, hər il dünyada, təxminən, bir milyon insanın ölümünə səbəb olan şəkərli diabet ciddi təhlükə törədən, kəskin ağırlaşmalarla müşayiət olunan, müalicəsi çoxlu vəsait tələb edən xroniki xəstəlikdir. Şəkərli diabet digər xəstəlikləri kəskinləşdirə, ana və uşaq sağlamlığına mənfi təsir göstərə bilər. Bu xəstəliyin yüksək artımı eyni zamanda onun yaratdığı tibbi, sosial, iqtisadi, psixoloji və digər problemləri də qabardır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qəbul etdiyi xüsusi bəyannamədə şəkərli diabet "ağır xroniki xəstəlik" kimi səciyyələndirilib.

Ümumdünya Diabet Gününün keçirilməsi ilə bağlı təklif Beynəlxalq Diabet Federasiyası və ÜST tərəfindən dünyada diabet hallarının yüksəlməsinin qarşısını almaq məqsədilə 1991-ci ildə irəli sürülüb. O vaxtdan etibarən hər il 14 noyabr Ümumdünya Diabet Günü kimi 160-dan çox ölkədə qeyd edilir. Kampaniya ictimaiyyəti xəstəliyin səbəbləri, simptomları, fəsadları və müalicəsi ilə məlumatlandırmaq məqsədi daşıyır. Ümumdünya Diabet Günü milyonlarla insanı – şəkər xəstəsi olan və olmayan uşaq və yetkin insanları, səhiyyə mütəxəssislərini bir yerə toplayır, diabetlə bağlı qlobal məlumatlılıq artırılır, bu xəstəliyin qarşısının alınması yolları araşdırılır.

Baş həkim vurğulayıb ki, Azərbaycan Respublikasında şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyənləşdirən, bu xəstəliyin profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyən "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "Şəkərli diabet üzrə Dövlət Proqramı" təsdiq edilib.

Sonra Endokrinoloji Dispanserin həkimi Aysel Dünyamalıyevanın "Diabet xəstəliyinin erkən diaqnostikası, insulinlə müalicəsi, uşaqlarda şəkərli diabetin xüsusiyyətləri" mövzusunda məruzəsi, dispanserin həkimi Gülşən Həsənquliyevanın, Ordubad Rayon Mərkəzi Xəstəxanasının həkim-endokrinoloqu İlham Seyidovun çıxışları dinlənilib. Məlumat verilib ki, muxtar respublikamızda da görülmüş tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təmin olunması xeyli yaxşılaşdırılıb. 2007-ci ildə verilmiş qlükometr aparatları və test lövhələrindən ibarət özünənəzarət vasitələri yeniləri ilə əvəz olunub. Təkcə bu ilin ötən 10 ayında 1137 ədəd şəkərölçən cihaz, 2067 qutu şəkərölçən test paylanıb. Bu cihaz və testlər Naxçıvan Muxtar Respublikası Endokrinoloji Dispanserdə qeydiyyatda duran hər bir xəstənin özünə ödənişsiz olaraq təqdim edilir. Eyni zamanda qanda şəkərin miqdarının təyin edilməsi qaydaları izah olunur. Müalicə-diaqnostika işinin yaxşılaşdırılması şəkərli diabet xəstələrinin aşkarlanması üçün də şərait yaradıb. 2011-ci ildən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin laboratoriyasında şəkərli diabet xəstələri üçün qlükozalaşmış hemoqlobinin təyininin tətbiq olunması həmin xəstələrin qanında şəkərin miqdarına daha dəqiq nəzarət etməklə diabet əleyhinə dərman preparatlarının dozasının müəyyən edilməsini daha da asanlaşdırıb.

"2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı"nın icrası üçün Endokrinoloji Dispanser tərəfindən şəkərli diabetin diaqnostikası və müalicəsi üzrə klinik protokolların tətbiqi, xəstəliyin profilaktikasına dair maarifləndirici söhbətlərin aparılması, diabetin fəsadlarının profilaktikası məqsədilə tibb müəssisələrində təlim məktəbləri şəbəkəsinin gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır.

Bu məqsədlə artıq 4 ildən çoxdur ki, diabet məktəblərinin təlim, məşğələ və treninqləri təşkil olunur. Məqsəd muxtar respublikanın şəhər və rayonlarında ilkin səhiyyə xidməti göstərən tibb işçiləri, şəkərli diabet xəstələri, risk qrupuna aid əhali arasında bu xəstəlik və onun fəsadlarının profilaktikası barədə bilik, bacarıq, müəyyən vərdişlərin artırılmasına nail olmaqdır.

Hazırda dispanserin fəaliyyətində əsas diqqət xəstələrə göstərilən tibbi yardımın daha da təkmilləşdirilməsinə və xəstəlik nəticəsində meydana çıxan fəsadların qarşısının alınmasına yönəldilib.

Tədbirdə nazirliyin strukturuna daxil olan səhiyyə müəssisələrinin həkim-endokrinoloqları, terapevt və aid işçiləri iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Görmə məhdudiyyəti olan şəxslər arasında brayl yazı müsabiqəsi

13 noyabr – Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə görmə məhdudiyyəti olan şəxslər arasında Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində brayl yazı müsabiqəsi keçirilib. Müsabiqədə bu kateqoriyadan olan 8 nəfər iştirak edib.

Münsiflər heyətinin rəyinə əsasən, ilk üç yerə layiq görülən müsabiqə iştirakçılarına mükafatlar, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr təqdim edilib.

Tədbirin keçirilməsində məqsəd bu kateqoriyadan olan şəxslərə qayğı göstərilməsi, onların bacarıq və qabiliyyətini üzə çıxarmaqla, özlərinə inam hissi yaratmaq olub.

**Xəbərlər şöbəsi**

*Muxtar respublikamızda müharibə veteranlarının yubileylərinin keçirilməsi davam edir. Noyabrın 12-də Ordubad rayonunun Tivi kənd sakini, müharibə veteranı Məmmədəli Sultanovun 95 yaşının tamam olması münasibətilə onunla görüş keçirilib.*

## Müharibə veteranının 95 yaşı qeyd olunub

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova yubilyarı 95 yaşı münasibətilə təbrik ediblər.

Bildirilib ki, muxtar respublikamızda 1941-1945-ci illər müharibəsi veteranlarının sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Onlar minik avtomobilləri ilə, həmçinin texniki-bərpa vasitələri və protez-ortopediya məmulatları ilə təmin olunur, pensiya və müavinətlərlə yanaşı, hər ay veteranlara Prezident təqaüdü ödənilir, bu qəbildən olan insanlar sanatoriya və pansionatlara müalicəyə göndərilirlər. Bütün bunlar müharibə veteranlarının sağlamlığının qorunmasına, rifahlarının yüksəlməsinə xidmət edir.

Məmmədəli Sultanov ona göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

Məlumat üçün bildirək ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 12 mart 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"nın müvafiq bəndinin icrasına uyğun olaraq təşkil edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## "Dədə Qorqud" filmi nümayiş etdirilib

10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində "Dədə Qorqud" filmi nümayiş etdirilib. 1975-ci ildə ekranlaşdırılan "Dədə Qorqud" Azərbaycan tarixindən bəhs edən mükəmməl filmlər sırasındadır. Film dünya ədəbiyyatı xəzinəsinin nadir incilərindən sayılan, Azərbaycan xalqının keçmişini özündə yaşadan "Kitabi-Dədə Qorqud" dastanının motivləri əsasında çəkilib.

Filmdəki hadisələrin mərkəzində xalq dayanır. Burada xalqın taleyi, tarixi proseslərdə rolu, uzaq keçmişi, adət və ənənələri barədə danışılır. Filmin baş qəhrəmanı Dədə Qorqud saysız-hesabsız insan fəlakətlərinin, ardı-arası kəsilməyən müharibələrin şahidi olan və insanları vətəni sevməyə, dostluğa, qardaşlığa səsləyən el ağsaqqalıdır.

Filmə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan 400-ə yaxın tələbə tamaşa edib.

## "Nuh yurdu" intellektual oyununun Naxçıvan şəhər mərhələsi başa çatıb

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Naxçıvan Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Gənclər Mərkəzində "Nuh yurdu" intellektual oyununun şəhər birinciliyi keçirilib. Tədbiri Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov açaraq bildirib ki, intellektual oyunun keçirilməsində məqsəd Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətinin və tarixinin təbliğindən, yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaqdan, onlar arasında bilik və elmin nüfuzunu artırmaqdan, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.

8 komandanın iştirak etdiyi intellektual oyun 2 mərhələ və final mərhələsindən, hər mərhələ isə beş raunddan ibarət olub. Gərgin keçən mübarizə nəticəsində "Nuh yurdu" komandası birinci yerə layiq görülüb. "Əlincə" komandası ikinci, "Nuh diyarı" komandası isə üçüncü olub.

Qaliblər təşkilatçılar tərəfindən diplom və fəxri fərmanlarla mükafatlandırılıblar. Məlumat üçün qeyd edək ki, "Nuh yurdu" komandası Naxçıvan Muxtar Respublika mərhələsində Naxçıvan şəhərini təmsil edəcək.

✍ **Ceyhun MƏMMƏDOV**

## Cəzaçəkmə müəssisəsində konsert

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki 2 nömrəli Uşaq Musiqi Məktəbinin Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq-tipli Cəzaçəkmə Müəssisəsində konsert proqramı təşkil edilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri İmamqulu Əhmədov belə tədbirlərin əhəmiyyəti, cəzaçəkmə müəssisəsində məhkumların asudə vaxtlarının səmərəli təşkili üçün yaradılan şərait barədə danışıb. Bildirilib ki, onların boş vaxtlarında hazırladıqları əl işlərindən ibarət sərgilərin təşkili, əl işlərinin satılmasına kömək göstərilməsi də diqqətdə saxlanılır.

Sonra musiqi kollektivinin səsləndirdiyi ifalar iştirakçılarda xoş ovqat yaradıb.

✍ **Arzu ABDULLAYEV**

***İtmişdir***

Baxşəliyev Rakim Qurban oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 857